# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin nəzdində "Naxçıvan DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında**

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciətini nəzərə alaraq Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Muxtar respublikada işaxtaran və işsiz şəxslərin ictimai işlərə, həmçinin aktiv məşğulluq tədbirlərinə əlçatanlığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin nəzdində "Naxçıvan DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. bu Qərarın 1-ci hissəsi ilə yaradılmış Cəmiyyətin Nizamnaməsini və ştat cədvəlini hazırlayıb təsdiq etsin;

2.2. aidiyyəti dövlət orqanları ilə birlikdə bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "25" aprel 2023-cü il

№ 72